# Türkiyədə Azərbaycanın Müstəqillik Günü münasibətilə silsilə tədbirlər

## İstanbul

Azərbaycanın İstanbuldakı Baş Konsulluğu tərəfindən təşkil olunan mərasimdə Baş konsul Nərminə Mustafayeva, İstanbulda müalicə olunan Vətən müharibəsi qaziləri, İstanbul Valiliyi və qardaş ölkənin digər dövlət qurumlarının



rəsmiləri, burada fəaliyyət göstərən azərbaycanlı incəsənət və ictimaiyyət xadimləri, diplomatlar, Azərbaycanın dövlət təşkilatlarının qardaş ölkədəki nümayəndələri, təhsillərini Türkiyədə davam etdirən hərbçilərimiz və digər qonaqlar iştirak ediblər. Tədbirdə baş konsul Nərminə Mustafayeva qeyd edib ki, qısa bir dövrü əhatə etməsinə baxmayaraq, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin öz müstəqilliyini elan etməsi ilə Türk və İslam dünyasında ilk demokratik respublikanın qurulması, eyni zamanda Azərbaycan xalqının tarixində dönüş nöqtəsi oldu.

Azərbaycanın öz müstəqilliyini 1991-ci ildə bərpa etdiyini xatırladan Nərminə Mustafayeva bunun heç də asan olmadığını deyib. O bildirib ki, ümummilli lider Heydər Əliyev indiki güclü-qüdrətli Azərbaycanın təməlini qoydu. Hazırda onun başlatdığı bu yolu uğurla davam etdirən Prezident İlham Əliyevin Azərbaycan xalqına verdiyi ən böyük töhfələrdən biri isə tarixi Qarabağ torpağımızın bizə qaytarılmasıdır. İndi biz uğurlu, güclü Azərbaycanın vətəndaşları olmağın qürurunu yaşayırıq. Keçdiyimiz bütün bu yollarda isə qardaş Türkiyə daim yanımızda oldu.

Bədii hissə ilə davam edən tədbirdə Azərbaycanın milli musiqiləri və rəqsləri səsləndirilib, qonaqlara milli mətbəxin nümunələri təqdim olunub.

Onu da qeyd edək ki, 28 May - Müstəqillik Günü münasibətilə ölkəmizin İstanbuldakı Baş Konsulluğunun təşəbbüsü və qardaş ölkənin aidiyyəti dövlət qurumlarının dəstəyi ilə İstanbulun rəmzləri hesab olunan, tarixi Qalata qülləsi və İstanbulun iki qitəsini birləşdirən körpüləri şanlı bayrağımızın rənglərinə bürünüb.

## Ankara

Müstəqillik Günü münasibətilə Ankarada rəsmi qəbul təşkil olunub. Qəbulda Türkiyə ali hakimiyyət orqanlarının təmsilçiləri, qardaş ölkədə akkreditasiya olunan beynəlxalq təşkilatların və diplomatik korpusun rəhbərləri və nümayəndələri, Türkiyə ictimaiyyətinin görkəmli simaları və azərbaycanlılar iştirak ediblər.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov,



Türkiyənin vitse-prezidenti Fuad Oktay və səfirliyimizin nəzdində Azərbaycan Silahlı Qüvvələrinin hərbi attaşesi polkovnik Müşfiq Məmmədov çıxış ediblər.

28 May - Müstəqillik Günü münasibətilə Ankaranın simvollarından olan Atakule qülləsi Azərbaycan bayrağının rənglərinə boyanıb və qüllənin üzərində türk və ingilis dillərində "Azərbaycan, Müstəqillik Günün mübarək olsun" sözləri yazılıb.

## Ərzurum

Azərbaycanın Qarsdakı Baş Konsulluğu Müstəqillik Günü münasibətilə Türkiyənin Ərzurum şəhərində təntənəli mərasim təşkil edib.

Rəsmi hissə və bədii proqramdan ibarət olan mərasimdə Azərbaycanın Qarsdakı Baş konsulu Nuru Quliyev, Ərzurum vilayəti valisinin müavini Can Atak və Ərzurum Atatürk Universitetinin rektoru Ömər Çomaklı çıxış ediblər.



Müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin təsis edilməsini xalqımızın öz dövlətçilik tarixinə və ənənələrinə sədaqət nümunəsi kimi dəyərləndirən çıxış edənlər diqqətə çatdırıblar ki, XX əsrin əvvəllərindən fərqli olaraq, indi müasir Azərbaycan bütün sahələr üzrə dinamik inkişafdadır.

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs, eləcə də böyük siyasi xadimin Türkiyə ilə qardaşlıq münasibətlərinin bərpası və inkişafı istiqamətində formalaşdırdığı strategiya barədə məlumat verilib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyində Azərbaycan-Türkiyə münasibətlərinin Şuşa Bəyannaməsi əsasında müttəfiqlik səviyyəsinə yüksəlməsi dövlətlərimizin birlikdə güclənməsi, ölkələrimizin təhlükəsizliyi, xalqlarımızın rifahı üçün mühüm əhəmiyyət kəsb edir.

Mərasim Naxçıvan Dövlət Konservatoriyasının bədii qrupları tərəfindən zəngin ifalarla davam etdirilib.

## Van

Azərbaycanın Qarsdakı Baş Konsulluğu 28 May - Müstəqillik Günü münasibətilə Türkiyənin Van şəhərində təntənəli rəsmi qəbul təşkil edib. İlk öncə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib. Azərbaycanın Qarsdakı baş konsulu Nuru Quliyev və Bakı Dövlət Universitetinin dosenti Arzu Məmmədovanın çıxışları dinlənilib. Natiqlər Azərbaycan Xalq Cümhuriyyətinin təsis edilməsi, 23 aylıq qısa zaman kəsiyində Cümhuriyyətimizin dünya birliyi tərəfindən tanınması və qarşılaşdığı problemlərdən danışıblar.




Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyində Azərbaycan-Türkiyə münasibətlərinin Şuşa Bəyannaməsi əsasında müttəfiqlik səviyyəsinə yüksəldiyi barədə söylənilən fikirlər iştirakçılar tərəfindən hərarətli alqışlarla qarşılanıb. Qəbulda Van vilayətinin valisi Ozan Balcı, Van bələdiyyəsinin baş katibi Fatih Çalıkəl və digər rəhbər şəxslər, yerli ictimaiyyətin tanınmış nümayəndələri iştirak ediblər.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**